# Xalq yazıçısı Anarla görüş






Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kəriminin təşəbbüsü ilə həyata keçirilən Ədəbiyyat görüşləri davam edir.

Mayın 22-də AYB-nin sədri, Xalq yazıçısı Anarla görüş keçirilib. Görüşdə Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi AMK-nın fəxri medalını yazıçıya təqdim edib. Görüş tələbələr və Azərbaycan Milli Konservatoriyasının heyəti tərəfindən maraqla qarşılanıb. AMK tərkibində İncəsənət Gimnaziyasının Balaca Yazarlar Birliyi qrupu üzvləri və tələbələr yazıçıya suallar ünvanlayıb. Xatirə şəkilləri çəkilib. Yaddaşlardan silinməyəcək görüş xoş təəsüratlarla sona çatıb.